*Yeni dərs ili qarşısında*

# İsmayıllıda “Təhsil bayramı”

**Universitetlərə qəbul zamanı İsmayıllı tam orta məktəb məzunları respublika miqyasında fərqli nəticələrə çatmaq üçün hansı yolları qət ediblər? İlk olaraq qeyd olunmalıdır ki, həyat fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, təhsil siyasəti ilə bağlı da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncam, tapşırıq, göstəriş və tövsiyələri rayonda məsuliyyətlə icra olunur.**

Məktəblərin maddi bazası möhkəmləndirilir, müəllimlərin iş şəraiti yaxşılaşdırılır, hər bir pedaqoji işçinin uğuru təqdir olunur, mükafatlandırılır, daha fərqliləri fəxri adlara və təltiflərə təqdim olunur. İsmayıllı Rayon İcra Hakimiyyətinin rəhbərliyi ayda bir dəfə ümumtəhsil məktəblərində tədris şəraitini, yanacaqla təchizatı, zamanı gələndə yeni dərs ilinə hazırlığın, qış mövsümünün gedişinin mövcud durumunu öyrənir, təhlillər aparır və növbəti vəzifələri müəyyənləşdirir. Məktəblərin tikintisi və təmiri, dərsliklərlə, yanacaqla təminat xüsusi diqqətdə saxlanılır. Ötən illərdə rayonda çoxsaylı məktəblər tikilib. Onlar barədə yox, yalnız bu ilə istinadən qeyd edirəm ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Basqal qəsəbəsində 432 yerlik, Heydər Əliyev Fondu tərəfindən Gəraybəyli kəndində 320 yerlik, Uştalqışlaq və Girk kəndlərində modul tipli məktəblər tikilir. Məktəblərin 4-ü də yeni tədris ilinin başlanğıcına qədər hazır olacaqdır. 26 avqust 2018-ci il tarixdə Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva orijinal layihə əsasında tikilmiş Lahıc qəsəbə tam orta məktəbinin açılışını etmişlər.





İsmayıllı rayonunda 46 tam, 23 ümumi orta və 10 ibtidai məktəb fəaliyyət göstərir. 2019-cu ildə tam orta məktəbləri 765 nəfər bitirib. Onların 546 nəfəri qəbul imtahanları üçün sənəd verib. 75 nəfər sənəd verən isə keçən illərin tam orta məktəb məzunlarıdır. 400 nəfər imtahanlardan uğurla çıxaraq tələbə adını qazanıb. 16 nəfər 600-dən çox, 65 nəfəri 500-600 arası bal toplayıb. 2017-2018-ci illərdə ali məktəblərə qəbulun nəticələrinə görə İsmayıllı rayonu kənd rayonları arasında ikinci yerdə olub. Rəsmi nəticələr elan olunana qədər yalnız onu demək istərdim ki, sıralamada bu il də geriləmə olmayacaq.

İsmayıllı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və rayon təhsil şöbəsinin iştirakı ilə “Təhsil bayramı” keçirmək bu il də qərara alınıb. İsmayıllı şəhərinin Mərkəzi meydanı 28 avqustda növbəti hamının sevincinə səbəb olan “Təhsil bayramı” üçün məkan seçilib. Ali məktəblərə yeni qəbul olunan tələbələr, valideynlər, pedaqoji kollektivlər, ictimaiyyət nümayəndələri, gənclər, əvvəlki illərdə yüksək bal toplamış tələbələr, müxtəlif təşkilatlardan olan və özəl qonaqlar, Belarus Respublikasının Nesvij şəhərindən gələn nümayəndə heyətinin üzvləri bu məkana toplaşmışdılar.

İştirakçılardan bir qrupu əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar. Bayram tədbirini giriş nitqi ilə təhsil veteranı, rayon ağsaqqallar şurasının sədri Valeh Salehov açıb. Rayon təhsil şöbəsinin müdiri Rasim Orucov ilin təhsil nəticələrinə həsr olunmuş məruzə ilə çıxış edib.

Ağlın, ayıq düşüncənin, yeni təfəkkürün, biliyin təntənəsi olan “Təhsil bayramı”nda yüksək bal toplayan məzunlar, valideynlər, ictimaiyyət nümayəndələri, uğurları ilə daha çox diqqət cəlb edən məktəblərin nümayəndələri çıxışları ilə bayram sevincinə sevinc qatıblar. Bayram şənliyi mahnılar, rəqslər, folklor qruplarının çıxışları ilə müşayiət olunub. Rayonun təhsil, kənd təsərrüfatı istehsalı, mədəniyyət və incəsənətini əks etdirən sərgiyə iştirakçılar maraqla tamaşa ediblər.

Bayram şənliyi “Qala” şadlıq sarayında davam etdirilib. Buraya rayon icra hakimiyyətinin əməkdaşları, ictimaiyyət nümayəndələri, veteran müəllimlər, pedaqoji fəaliyyətdə daha çox nailiyyətləri olan müəllimlər, məktəb direktorları, qonaqlar, 500-dən yuxarı bal toplayan 81 nəfər məzun, qonaqlar - cəmi 300 nəfər dəvət olunub.

Tədbiri giriş nitqi ilə Əməkdar müəllimlər Şəfaqət Rəsulov və Mirvari Musayeva açıblar. Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov yenicə tələbə adını qazanmış gəncləri, onların valideynlərini, müəllimlərini təbrik edib. Kamil mütəxəssis kimi yetişməkdə onlara uğurlar arzulayıb. Belarusdan gələn qonaqların nümayəndəsi danışıb. 81 nəfər yüksək bal toplayan tələbə-gəncə RİH-in hədiyyəsi və təbrik mətni təqdim olunub. Universitetlərə qəbulda məzunları daha çox fərqlənən məktəblərin direktorları, sinif rəhbərləri və aparıcı fənn müəllimləri mükafatlandırılanlar sırasında olublar. Şəhər 7 saylı məktəbin məzunu 661 bal toplayan Ayla Yusifli və 651 bal toplayan Sevinc Babazadə, şəhər 1 saylı məktəbin məzunu, 652 bal toplayan Nərmin Nemətli rayon üzrə ən yüksək bal topladıqlarına görə xüsusi mükafata layiq görülüblər.

Muğam müsabiqəsi qalibi Kamilə Nəbiyeva, Əməkdar mədəniyyət işçisi Aşıq Ağamurad İsrafilov, “Tərəqqi” medallı Sahibə Abdullayeva və başqalarının oxuduqları mahnılar, ifa olunan rəqslər bayram təntənəsini daha da rövnəqləndirib.

“Təhsil bayramı” axşam saatlarında Heydər Əliyev parkında möhtəşəm konsertlə yekunlaşıb.

**Rasim AMANOV,**
**“Respublika”.**

Respublika.- 2019.-30 avqust.- S.3